MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU
(ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)

Kübra Əliyeva
Sənətşünaslıq elmləri doktoru, professor
AMEA Arxeologiya və Antropologiya İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.215

Azərbaycan muğamı probleminə həsr olunmuş məqalədə onun qədim Manna, sonra Midiya dövrlərinə gedib çıxdığı, Zərdüştilik kahinləri tərəfindən himn kimi formalaşdırıldığı və maqlar tərəfindən əsrlər boyu ifa olunduğu haqqında nəticələr təqdim edilir. Həmin himnlər səma cisimlərinə və Ahura Mazdaya həsr olunmuşdur. Müəllif muğamın "maqam", yəni "maqların himni" kimi adlandırılmasını daha düzgün hesab edir və bu mövqeyini "muğ" sözünün fars dilində "atəşpərəst" mənasını ifadə etməsi ilə əsaslandırır. Eyni zamanda "muğam" sözünü "maqam" anlayışı ilə əlaqələndirərək, onu maq tayfalarının göy cisimlərinə ünvanlanan qədim himn ənənəsi ilə bağlayır.

Giriş. Azərbaycan muğamının mənşəyi, qaynaqları ən qədim dövrlərə gedib çıxır və zərdüştlük dünyagörüşü ilə bağlıdır. Zərdüştlük bizim əcdadlarımızın qədim dinidir. Məlum olduğu kimi, e.ə. III minilliyin sonunda Cənubi Azərbaycanın cənub-qərb bölgələrində lullubey və kuti tayfalarının birliyi yaranmışdı. Lullubeylər həmin ərazinin cənub-qərbində məskunlaşır, kutilər isə şimalda yerləşirdi. Kutilər Dəclə və Fərat vadisinin cənub hissəsi olan Mesopotamiyanı zəbt edərək bir müddət onu öz əlində saxladılar. Lullubeylər ərazisinin şərqində kassilər yaşayırdılar. Türk mənşəli qədim Azərbaycan etnosunun yaranmasında məhz bu etnoslar, yəni lullubeylər, kutilər, kassilər, subilər, maqlar iştirak etmişlər [13, s. 130].

Zərdüştlük sinfi cəmiyyətdən əvvəlki dövrə, yəni tayfa cəmiyyətlərinə xas olan yeddi göy cisminə sitayiş deməkdir və fikrimizcə onun əsasında yaranmış Azərbaycanın ən qədim dinlərindən biridir. Zərdüştlüyün meydana gəldiyi yer Manna və Midiya ərazisinin sonradan Atropatena dövlətinin yarandığı hissəsidir. Bir çox tədqiqatçıların fikrincə, yalnız eramızdan əvvəl IX əsrdə bu yerlərə gələn və eramızdan əvvəl V əsrdə Midiyanı işğal edən farslar əslən zərdüşt olmayıb. Əsl zərdüştlər Midiya tayfasının nümayəndələri olan maqlar olub. Sonralar həmin maqlardan Midiya kahinlər kastası, daha sonra isə farsların kahin kastası əmələ gəlmişdi.

Zərdüştlük dini eramızdan xeyli əvvəl qədim azərbaycanlıların ulduzların öyrənilməsi ilə məşğul olduqlarını və müəyyən kosmoloji təsəvvürlərə malik olduqlarını təsdiq edir. Möhsün Fani daha əvvəl yazılmış "Axteristan" əsərinə istinad etdiyi "Dəbistani əl-məzahib" kitabında qədim Subilərin, Manna tayfalarının ulduzları və göy qübbəsini əcdadların müqəddəs ruhlarının kölgələri olduğu yer bildiyini və buna görə də yeddi göy cisminə sitayiş etdiklərini göstərir.


Yeddi ulduzun hər biri hər hansı bir insanın evində saxlanılan müəyyən bir tilsimə (talismana) uyğun gəlirdi. Qədim azərbaycanlıların fikrincə talismanların hər biri hətta sehrli mənalar daşıyırdı. Bundan əlavə, yeddi ulduzun, sitarənin hər biri üçün xüsusi məbədlər ucaldılırdı. Hər bir məbəd həftənin müəyyən bir günündə və müəyyən bir vaxtda ziyarət edilirdi. Məbədlərin içərisində müvafiq ulduzların, göy cismlərinin heykəlləri qoyulurdu.

"Azərbaycan xalçası" kitabının "Tağ və ləçəklər" bölməsində Lətif Kərimov Möhsün Faninin kitabına istinad edərək, vasitəli şəkildə onun "Dəbistani əl-məzahib" kitabından misal gətirir. Möhsün Fani kitabının yeddi planetə (sitarəyə) həsr olunmuş məbədlər, atəşpərəstlərin məbədləri və bu planetlərin adlarını daşıyan bütpərəstlərin məbədləri ilə bağlı bölməsində yazır:

“Ərəblərin peyğəmbəri (Məhəmməd (ə.s.) - L.K.) yeddi planeti təcəssüm etdirən heykəllərə sitayiş edir. O, Saturn planetini təcəssüm etdirən qara heykəli (məşhur qara daş - L.K.) qorumağı əmr etdi. Həmin heykəl qədim zamanlardan Məkkə (Kəbə) şəhərində yerləşir. Qüreyşdən gətirilən və planeti təmsil etməyən hər hansı heykəl sındırılıb dağıdılırdı. Bütpərəst məbədlərinin bəzilərində məscid mehrablarına bənzər Venera (Zöhrə) heykəlləri qoyulmuşdu. Bu mehrablar Zöhrə heykəllərindən başqa bir şey deyil” [11, s. 109].

Bu məqalənin müəllifi uzun illər - 40 ildən çox tədqiqat apararaq həmin heykəllərin hansı formada olduğunu araşdırmaqla məşğul olmuş və təsadüfən Azərbaycan Milli Xalça Muzeyində saxlanılan, XIX əsrə aid, üzərində təsvirlər olan Təbrizdə toxunmuş bir xalçanı aşkar etmişdir. Bu xalçanın təsviri vaxtilə Rasim Əfəndiyevin bir kitabında və Röya Tağıyevanın “Azərbaycanın süjetli xalçaları” adlı əsərində də öz əksini tapmışdır. Müəllif qeyd edir ki, bu xalçanın varlığını yalnız Lətif Kərimovun vəfatından sonra müəyyən etmiş və onun üzərindəki süjetləri tədqiq edərək fars dilində bütün planetlərin adlarını, həmçinin həmin planetlərə aid heykəllərin təsvirlərini aşkar etmişdir. Beləliklə, xalçanın üzərində diqqətlə baxdıqda bir-birindən fərqli heykəllərin, eləcə də Möhsün Faninin təsvir etdiyi atributların əks olunduğu görünür. Bundan əlavə, həmin təsvirlərin yanında uyğun göy cisimlərinin adlarının fars dilində yazıldığı da müşahidə olunur.





Qədim dövrlərdə Sabi adlanan və göy cisimlərinə sitayiş edənlər səma cisimlərinə - yeddi planetə sitayiş edirdilər. Məlum olduğu kimi, Manna tayfasına mənsub kutilər Şumerdə 125 il hökmranlıq etmişlər. Çox güman ki, onlar şumerləri zərdüştlük dini ilə məhz həmin dövrdə tanış etmişlər və Şumerdə, Ur şəhərində yeddi yaruslu zikkuratlar da həmin dövrdə

ucaldılmışdır. Zikkuratın terrasları müxtəlif rənglərdə idi: qara (bitumla suvaqlanmış), qırmızı (bişmiş kərpiclə üzlüklənmiş), ağ (ağardılmış) və digər rənglərdən istifadə olunmuşdur [1, s. 46]. Hər yarus bürclərin rəngini təkrar edirdi. Yazda gecə-gündüzün bərabərliyi vaxtı, yəni Novruz bayramı zamanı şumerlərin qoç kəsərək onun qanı ilə divarları rəngləməsi də məlumdur.

Herodotun Aqbatanada (Həmədan) tikilmiş oxşar zikkurat haqqında hekayəsini misal gətirmək burada yerinə düşərdi. Herodot yazır: "Midiyalılar Deyokanı Midiyanın hökmdarı seçmək qərarını verəndə, Deyoka onun üçün padşah adına layiq və nizə ilə silahlanmış mühafizəçilərlə qorunan bir saray tikməyi əmr etdi. Midiyalıları buna sövq edərək, Deyoka hal-hazırda "Aqbatan" adlanan böyük, möhkəm qala divarları tikməyi əmr etdi. Divarların hər biri digərinin ətrafında bir "halqa" yaradır və yaranmış akropol - qala elə qurulmuşdu ki, bir "halqa" digərindən yalnız dişlikləri qədər uca idi. Bu cür quruluş qismən dağlıq ərazinin xüsusiyyətlərindən irəli gəlir, qismən də sənətkarların məharəti ilə əldə edilmişdi. Akropolun cəmi yeddi divar halqası var idi və sonuncu "halqanın" daxilində padşahın sarayı və xəzinələri yerləşirdi. Qala divarlarının ən böyüyünün ölçüsü Afinanın dövrələmə divarına demək olar ki, bərabərdir. Bayır tərəfdən birinci divarın dişlikləri ağ, ikincinin qara, üçüncünün al qırmızı, dördüncünün mavi, beşinci isə qırmızı rəngdədir. Beş divardakı dişliklər deyilən kimi boyanmışdır. Son iki divardan biri gümüşlə örtülmüş, digəri isə qızılla örtülmüşdür" [6, s. 98-99, 54].

Yunan mənbələri maqların dünyagörüşünü geniş şəkildə işıqlandırır. L. Diogen Aristotelin maqlar haqqında kitabına, eləcə də Dionun tarixinin beşinci kitabına istinad edərək yazır ki, maqlar sehrbazlıqla məşğul olmur və ulduzlara sitayiş edən ilk maq məhz Zərdüşt olmuşdur. Həmin fikri Hermodor da təsdiq edir [9, s. 65].

Məlum olduğu kimi, Azərbaycanda və onun hüdudlarından kənarda zərdüştiliyi araşdıran alimlər bu dinin farslara mənsub olduğunu və onun atəşpərəstliklə bağlı olduğunu düşünürlər. Lakin arxeoloji materiallar zərdüştiliyin azərbaycanlıların ən qədim dini olduğunu göstərir. Azərbaycanın qədim sakinləri səma qübbəsini öyrənmiş və onlar planetlər haqqında bəzən ibtidai olsa da, müəyyən təsəvvürlərə malik olmuşlar. Yeni inancın peyğəmbəri sayılan Zərdüştün özü də alim-astroloqlardan biri olmuş, ulduzlar aləminin tədqiqi ilə məşğul olmuşdur. Təsadüfi deyil ki, qədim yunanlar "Zərdüşt" adını "astron", yəni ulduz anlayışı ilə əlaqələndirmişlər. Bu səbəbdən qədim mənbələrdə Zərdüşt müdrik astroloq və münəccim kimi təqdim olunur [4, s. 4].


Bir çox iranşünas alimlərin fikrincə, Zərdüşt eramızdan əvvəl V əsrdə yaşamış və o, fars maqı, atəşpərəst olmuşdur. Məlum olduğu kimi, Herodotun "Tarix" əsərində yazdığına görə, Midiya şahı Astiaq münəccimlərin məsləhəti ilə öz qızı Mandananı Kambiz adlı varlı bir farsa verir [6]. Bu nigahdan onların Kir (farsca Kuruş) adlı oğlu dünyaya gəlir və həmin Kuruş Midiyanı zəbt edir, daha sonra Kiçik Asiyanı, Babil dövlətini və Aralıq dənizi sahillərini işğal edir.

Zərdüştiliyə onlarla kitab həsr etmiş məşhur ingilis alimi Meri Boys bu barədə yazır: "Eramızdan əvvəl 549-cu ildə farslar o zaman hakimiyyətdə olan Midiya hökmdarının kürəkəni Əhəmənilər sülaləsindən olan Böyük Kirin başçılığı ilə üsyan qaldırdılar, midiyalıları məğlub etdilər və ilk fars dövlətini qurdular. Həmin dövlətdə midiyalılar hələ də görkəmli rol oynayırdılar. Antik dövrün mənbələrindən alınan məlumatlar farsların ilk dəfə Asiyaya daxil olduqları dövrdə artıq zərdüşti olmasını güman etməyə əsas verir. Farslardan Zərdüşt haqqında məlumat əldə edən yunanlar təbii olaraq onu fars peyğəmbəri və 'böyük maq' hesab edirdilər. Belə ki, Hermodor və Smirnalı Hermipp hesab edirdilər ki, Zərdüşt Troya müharibəsindən beş min il əvvəl yaşamışdır. Lidiyalı Ksanfın fikrincə, Zərdüşt Kserksin Yunanıstana hücumundan altı min il əvvəl,

Aristotelin fikrincə isə ustadı Platonun ölümündən altı min il əvvəl yaşamışdır". M. Boysa görə, Zərdüşt də öz xalqı kimi ən qədim zamanlarda – daş dövründə yaşamışdır [5, s. 18].

Apardığımız araşdırmalar göstərir ki, zərdüştiliyin qədim dövrlərdə atəşpərəstliklə birbaşa əlaqəsi olmamış və bir çox alimlərin iddia etdiyi kimi Zərdüşt eramızdan əvvəl V əsrdə yaşamamışdır. Azərbaycan ərazisində tapılan keramika qablar üzərindəki rəsmlərin süjetləri zərdüştiliyin səma cisimləri ilə sıx bağlı olduğunu və bu inancın azərbaycanlıların ilkin dünyagörüşünü əks etdirdiyini sübut edir.

XIX əsrin sonlarında arxeoloq Emil Resler tərəfindən aşağıda müzakirə ediləcək çox maraqlı süjetli keramika qabları aşkar edilmişdir. Həmin qablar Azərbaycanın müasir Göygöl rayonundan 2 km cənub-şərqdə yerləşən Saryal sıra dağlarının Kilikdağ kurqanlarında tapılmışdı. Bu kurqanlarda qazıntılar təxminən 40 ildən sonra arxeoloq Yakob Hummel tərəfindən davam etdirilmişdi. Qazıntılar 1936-1939-cu illərdə Azərbaycan EA Tarix İnstitutu tərəfindən aparılıb.



Gəncəçay Kilikdağdan tapılan e.ə. II minilliyə aid səməni üçün hazırlanan komplekt qablar

Bu qablardan üçü Yakob Hummel tərəfindən 79 saylı kurqanda, biri isə Emil Resler tərəfindən onun yaxınlığındakı kurqanda aşkar edilmişdir. Göygöl yaxınlığındakı kurqanda (№ 2) iki qabın tapıldığı da məlumdur. Bu qablardan altısı eyni süjetli təsvirə malikdir, lakin onlar forma baxımından fərqlənir. Onlardan üçü cam formasında, ikisi isə düz, hündür boyunlu, qulpsuz küpəvari qablardır. Qablar əsasən iki növ gildən - qara-boz və sarı-boz gildən hazırlanmışdır. Naxışlar, yəni qabların gövdəsinə vurulmuş fiqur və heyvan təsvirləri stilizə olunmuş şəkildə işlənmişdir. Bu təsvirlər ritmik ardıcıllıqla təkrarlanır. Məlum olduğu kimi, artıq eneolit dövründə ornament stilizə edilmiş xarakter almış, eyni zamanda müəyyən semantik və dini-sehrli məna kəsb etmişdir ki, bu da ornamenti piktoqrafiya ilə müqayisə etməyə əsas verir. Keramika səthlərinin bəzədilməsi üçün xarakterik olan sabit motiv diapazonu hələ eneolit dövründə formalaşmışdır. Buna misal olaraq Cənubi Azərbaycanda eramızdan əvvəl V minilliyə və IV minilliyin əvvəllərinə aid Göytəpə keramikasını göstərmək olar. Kilikdağ keramika məmulatları həm təsvir, həm də süjet baxımından həmin ənənənin davamı kimi çıxış edir.

Yakob Hummel öz məqalələrində bizi maraqlandıran keramika nümunələrinə toxunaraq onların ov səhnəsini əks etdirdiyi barədə fikir irəli sürür [7, s. 39]. Azərbaycanlı tədqiqatçı-alim

Münəvvər Hüseynova da öz monoqrafiyasında həmin təsvirlərin ov səhnələri olduğunu təsdiq edir [8, s. 77]. Saxsı qabların üzərində süjet ön planda dayanmış, qolları açıq vəziyyətdə olan insan fiqurunun stilizə edilmiş təsviri ilə ifadə olunmuşdur. Bu fiqurun gövdəsi iki üçbucaqdan ibarət olub, baş hissəsi dairəvi, işıq saçan element kimi verilmişdir. İnsan sol əlində stilizə olunmuş buynuzlu qoça yönəlmiş, kaman formasını xatırladan xüsusi bir kosmik alət tutur; həmin alətin üzərində günəş təsviri yerləşdirilmişdir. Qabların üzərində insan fiqurlarının ümumi quruluşu demək olar ki, dəyişməz qalır, yalnız baş hissəsində müəyyən fərqlər müşahidə olunur. Belə ki, bəzi təsvirlərdə baş hissəsi spiral şəklində yuxarı qalxan, nöqtəli xətlərlə işlənmiş dairəvi elementlə, digərlərində isə svastika ilə əvəz olunmuşdur. Qoç təsvirinə gəldikdə isə, diqqətlə baxdıqda onun buynuzlarında günəş təsvirinin olmaması müşahidə edilir ki, bu da onun adi heyvan deyil, kosmik mahiyyət daşıyan simvol olduğunu göstərir.

Kompozisiyaya həmçinin həyat ağacı elementi, üçbucaqlar və romblar daxildir. Fikrimizcə, bu süjetlər ov səhnələrindən uzaqdır, onlar sırf astral xarakter daşıyır və ulu əcdadlarımızın qədim təfəkkürü ilə bağlıdır. İnsan fiquru xüsusi alətlə dağ qoçu fiqurunu göstərən astroloq kimi təqdim olunmuşdur. Alətin astronomik mahiyyət daşıması onun üzərində əks olunan stilizə edilmiş günəş təsviri ilə sübut olunur. Dağ qoçu da səmavi xarakter daşıyır, yəni onun təfsiri dünyəvi deyil, kosmik məzmunludur. Bu, xüsusilə başın üzərində və ayaqların altında verilmiş nöqtəli spiral xətlərlə ifadə olunur ki, bu da onun əsas simvolik əlaməti kimi çıxış edir. Başqa sözlə, bu qablar qədim əcdadlarımız tərəfindən Novruzun yaz mərasimlərində istifadə edilən dini və sehrli məzmun daşıyan rituallıq əşyalar kimi qiymətləndirilə bilər.

Məlum olduğu kimi, qədim azərbaycanlıların əcdadları da Orta Asiyanın köçəriləri kimi astronomiya elminə dərindən bələd olmuş, səma cisimlərinin hərəkətini, hər şeydən əvvəl Günəşin səma sferası boyunca görünən hərəkətini müşahidə etmiş və onu izləmişlər. Qədim dünyanın müxtəlif ölkələrindən olan astronomlar kimi, qədim azərbaycanlılar da ulduzlu səmanı dörd hissəyə bölmüş, bu hissələrin hər biri müəyyən heyvan, rəng və ilin fəsli ilə əlaqələndirilmişdir. Bu bölgüdə yer alan yeddi bürc isə özünəməxsus simvolik məna kəsb etmişdir. İldə bir dəfə Günəş səma ekvatorunu keçərək bahar bərabərliyi nöqtəsinə, yəni Qoç bürcünə daxil olur. Günəşin səma ekvatoru ilə kəsişdiyi bu an martın 20 və ya 21-nə təsadüf edir və məhz həmin gün Novruz bayramının başlanğıcı hesab olunur. Bu baxımdan, qeyd olunan qabların üzərində təsvir edilən süjet və rəsmlər məhz Novruzun başlanğıcını, yəni təbiətin oyanışını və kosmik dövriyyənin yeni mərhələyə keçidini simvolik şəkildə əks etdirirdi [3, s. 168-171].

Təsadüfi deyil ki, qədim yunanlar Zərdüşt adını "astron" (yəni ulduz) anlayışı ilə əlaqələndirmişlər. Məhz bu səbəbdən qədim mənbələrdə Zərdüşt müdrik, astroloq və münəccim kimi təsvir olunur [4, s. 4]. Bu baxımdan, Kilikdağdan aşkar edilmiş keramika nümunələri üzərindəki astroloq təsvirinin Zərdüşt obrazı ilə əlaqəli olması istisna edilmir. Beləliklə, belə nəticəyə gəlmək olar ki, Azərbaycan atəşpərəstliyin deyil, zərdüştiliyin vətənidir. Zərdüştilik dünyagörüşü məhz səma cisimləri ilə bağlıdır və bu inanc sisteminin əsas daşıyıcıları kahinlər kastası olan maqlar olmuşdur.

"Avesta"nın mətninə gəlincə, o, Əhəməni sülalələri dövründə Midiya maqlarının şifahi ənənələrindən qaynaqlanaraq heyvan dərisi üzərində yazıya alınmış və müəyyən mənada hind Vedaları ilə tamamlanmışdır. Bununla belə, "Avesta" mətnində ilkin zərdüştilik təliminin yalnız müəyyən hissələrinin əks olunduğu qeyd olunur. Herodot qədim maqların bayram və dini mərasimlərini təsvir edərək yazır ki, onlar qurban mərasimlərində, dini ayinlərdə, şənliklərdə, eləcə də hökmdarların taxta çıxması zamanı keçirilən təntənəli mərasimlərdə iştirak edir, hökmdarlara xeyir-dua verir və "teoqoniyalar" oxuyurdular [10, s. 174].

“Avesta”nın qədim hissəsindən bəhs edərkən M.Boys qeyd edir ki, “Qatlar Peyğəmbərin nəğmələridir və onlara əlavə edilən, dil və yaranma baxımından yaxın olan hissələr əvvəlcə şifahi formada (K.A.), daha sonra isə İran yaylasının çöl ərazilərində 100 ildən artıq bir zaman kəsiyində, yəni tarixi dövrün başlanğıcına və daha sabit, möhtəşəm dövlətlərin - Midiya və Əhəmənilər dövlətinin meydana gəlməsinə qədər qorunub saxlanılmışdır” [5, s. 289]. Başqa sözlə, “Avesta” əsasən himnlərdən ibarətdir və kahinlər - maqlar müqəddəs hesab olunurdu. Onlar bütün dini mərasim mətnlərini uşaqlıqdan əzbər bilir və sinədən ifa edirdilər. Din xadimlərinin və zərdüştiliyi qəbul edən insanların himnləri ifa etməsi faktını Altay dağlarında tapılmış xalça nümunələrindən də müəyyən etmək mümkündür.

Məlum olduğu kimi, 1947-1949-cu illərdə professor S.Rudenko rəhbərliyi ilə Leninqrad Arxeologiya İnstitutunun ekspedisiyası Altay dağlarında kurqan qazıntıları zamanı əbədi donuşluq şəraitində yaxşı qorunmuş bir neçə xovsuz xalça və demək olar ki, kvadrat formalı unikal bir xovlu xalça aşkar etmişdir. 2-ci, 4-cü və 5-ci Pazırıq kurqanlarından tapılmış xalçalardakı təsvirlərin mükəmməl kompozisiyası, rənglərin aydınlığı və realist təqdimatı göstərir ki, qədim ustalar “mürəkkəb saplama” və “düyünləmə” texnikasına yüksək səviyyədə bələd olmuşlar. Əslində həmin texniki üsullar əsrlər boyu bir çox Şərq ölkələrində, o cümlədən Azərbaycanda xalçaçılıq sənətində geniş şəkildə istifadə edilmişdir.

Araşdırmalarımız göstərir ki, xovsuz xalçalar, xüsusən süjet təsvirli kilimlər məhz S. Rudenkonun zənn etdiyi kimi Qədim Manna və ya Midiya ərazisində toxunmuşdur [14, s. 75-76]. Lakin biz professor S.Rudenko və onun kilim süjetlərinin şərhi ilə razılaşa bilmərik. Məsələn, iki stilizə edilmiş qadının profildən təsvir olunduğu Midiya kilimindən bəhs edərkən S.Rudenko dua edən bu qadınların oda sitayiş etdiyini iddia edir və sübut kimi rəsmin mərkəzində ətirli maddələr yandırılan buxurdan təsvirini göstərir. Alim həmçinin öndə dayanan qadının əlində gül tutduğunu da ehtimal edir, halbuki bunun səbəbi aydın deyil.



Onu da nəzərə almaq lazımdır ki, Əhəmənilər, sonralar isə Sasanilər Midiyanı (e.ə. V əsr) işğal etdikdən sonra Midiya adət-ənənələrini və geyimlərini qəbul etsələr də, dini dünyagörüşü özlərinə məxsus şəkildə şərh etmiş, ona yeni məzmun vermişdilər. Beləliklə, Avesta peyğəmbəri Ahura Mazda “od tanrısı” kimi təqdim olunmağa başlanmışdır. Bir çox tədqiqatçılar, o cümlədən A.O.Makovelski tamamilə düzgün qeyd edir ki, “Spitama Zərdüşt təliminin sadiq davamçıları həm köhnə inanc tərəfdarlarından, həm də od tanrısını şərəfləndirən sonrakı Mazdayasna tərəfdarlarından fərqli olaraq atəşpərəst deyildilər” [12, s. 143].

Fikrimizcə, bu kilimin süjeti heç bir şəkildə Əhəmənilərin və Sasanilərin dövlət dini olan atəşpərəstliklə və ümumilikdə atəşpərəst dünyagörüşü ilə bağlı deyil və onun zərdüştiliyin ilkin məzmunu ilə də əlaqəsi yoxdur.

Bütün həyatını İran tayfalarının tarixini qələmə almağa həsr etmiş Firdovsi “Şahnamə” əsərində dolayısı ilə həmin tayfaların dini dünyagörüşünü də əks etdirir. Məsələn, Əhəmənilər sülaləsinin mifoloji banilərindən sayılan Kəyumərsin nəvəsi Hüşəngin vəhşi ilanı daşla öldürmək istəyərkən daşın daşa dəyib alov çıxarması motivi bu baxımdan diqqətəlayiqdir. Şah dedi:

Qaya güclü zərbə alıb dağıldı,
Daşa dəyərək qığılcım yaratdı.
İlan bütöv qaldı, sirrlər açıldı -
Alovun mənbəyi təbiətdə daş imiş.
Diz çöküb, hökmdar əllərini göyə uzatdı,
Dedi: şükr olsun sənə, böyük Yaradan,
Sən mənə bu nuru bəxş eləmisən,
Bu gündən bu alov səcdəgah olsun,
Bu işıq xalqımın alovu olsun,
Dünyada hamı ona səcdə etsin.

Herodot farsların xasiyyəti və adət-ənənələrindən bəhs edərkən yazırdı: "Onlara bütlər ucaltmaq, məbədlər və qurbangahlar tikmək qadağandır, öz qaydalarına zidd hərəkət edənləri onlar axmaq adlandırırlar" [6, s. 71; Herodot, Clio 131]. Zərdüşt rəvayətlərinə görə, Zərdüştün özü otuz yaşında Novruz bayramı münasibətilə haoma (səməni) hazırlamaq üçün su götürmək məqsədilə çaya gedərkən nur saçan varlıqlardan vəhy almışdı [5, s. 28]. Bu təlimlə dərindən məşğul olanlar məhz Midiya maqları olmuşdur. Şifahi xalq yaradıcılığı zəminində müqəddəs Avesta kitabı da həmin təlim əsasında formalaşmışdır. "Avesta"nın məzmunu və əsas ideyası Xeyirlə Şərin, yəni Ahura Mazda ilə Anqra Manyunun mübarizəsi üzərində qurulmuşdur. Ahura Mazda insanlara düzgün düşünməyi, doğru danışmağı və xeyirxah əməllər etməyi əmr edir.

O ki qaldı Kilikdağda arxeoloji qazıntılar zamanı tapılan qablara, onların "haoma" - müqəddəs "səməni içkisi"nin, yəni maye halında hazırlanaraq böyük qablara yığılan və sonra kiçik qablara bölünüb istifadə edilən içkinin saxlanılması üçün nəzərdə tutulduğu ehtimal olunur. Bu kitabda hazırlanma qaydası unudulmuş, zərdüştiliyin tərkib hissəsi olan həmin içki haqqında ayrıca tədqiqat məqaləsi təqdim edilmişdir. Beləliklə, demək olar ki, Midiya kilimində təsvir edilən qadınlar professor S.Rudenkonun ehtimal etdiyi kimi əllərində gül deyil, zərdüştilərin yaz bayramı ərəfəsində "səməni"dən (cücərmiş buğdadan) hazırladıqları müqəddəs "haoma" içkisi olan qab tutmuşlar [2, s. 74-90]. Öndə duran qadınlardan birinin zadəgan ailəsinə mənsub olduğu onun başındakı taca bənzər bəzəkdən aydın olur; tacın altından duvağa oxşar parça görünür. Hər iki qadın atəşə dua etmir, Ahura Mazdaya "maqam" tipli ilahi nəğmə oxuyur. Maqların nəğməsi hesab olunan muğamın mənşəyinin də buradan qaynaqlandığı ehtimal edilir. Xalçadakı qadınların nəğmə ifa etməsi onların ağızlarının açıq şəkildə təsvir olunması ilə əsaslandırılır. Arxada dayanan sadə geyimli qadın isə xidmətçi obrazıdır; o, əlində kəmər tutaraq onu xanımına bağlamağa hazırlaşır. Bu da zərdüştiliyə qəbul mərasiminin atributlarından biri kimi izah olunur.


Ehtimal etmək olar ki, azərbaycanlıların toy adətlərində bu günədək qorunub saxlanılan gəlinə qırmızı kəmər bağlama ənənəsi də zərdüştiliklə bağlıdır. Qeyd etmək lazımdır ki, bu tip kəmərlər XIX əsrin sonu - XX əsrin əvvəllərinə qədər kişilər tərəfindən də istifadə olunmuş, "qurşaq" kimi Azərbaycan milli geyiminin əsas elementlərindən biri olmuşdur. Beləliklə, qeyd edilən arxeoloji materiallar bir daha göstərir ki, azərbaycanlıların qədim əcdadları olan zərdüştilər yeddi səma cisminə sitayiş etmiş və ehtimal ki, maqların oxuduğu dini himnlərin hər biri ayrıca bir ulduza həsr olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycan musiqisində yeddi muğam sistemi mövcuddur və bu barədə Üzeyir Hacıbəyli də ətraflı yazmışdır. Eyni ideyanın bədii təcəssümünü Nizami Gəncəvinin məşhur "Yeddi gözəl" ("Həft Peykər") əsərində də görmək mümkündür; bu əsər yeddi ilahi ulduza həsr olunmuş simvolik quruluşu ilə diqqət çəkir. "Avesta"ya Peyğəmbərin özünün bəstələdiyi seçilmiş himnlər - dini nəğmələr daxil edilmişdir.

On yeddi Qatanın hamısının təkrarlanması zərdüştilik ibadət ritualının mühüm tərkib hissəsi hesab olunur [4, s. 6]. Nizami Gəncəvi bunu çox poetik şəkildə təsvir etmişdir:

Bəhram yeddi saray gördü yeddi sitarə tək,
Hər sarayın sitarəyə uyğun rəngi var idi.
Memarın Keyvana həsr etdiyi birinci günbəz...
Bu günbəz qara daşla üzlüklənmişdi (Saturn).
Müştəri işarəsi ilə nişan qoyulmuş günbəz
Daxildən sandalla örtülmüş idi (Yupiter).
Al rənglə bəzənmiş Bəhram sarayı qırmızı şəfəq saçırdı daim (Mars).
Memarın tikdiyi Günəşli saray alışıb yanırdı qızıl tək.
Zöhrəyə tac qoyulan günbəz nur saçırdı, ilahənin tacı tək.
Utaridin səmada arxa durduğu günbəz
Yanırdı səmada firuzə tək.
O təzə ay altında tikilmiş saray şahın libası tək, yaz tək yaşıldı.
Hər şahzadə özünə bir saray seçir,
Seçir öz əslinə, rənginə uyğun.
Sarayların hər birinin incə bəzəyi
Öz rənginə uyğun tərtib-bəzədilmişdi.

Çox təəssüf ki, Nizami Gəncəvi bu təsviri zərdüştiliyin ilkin daşıyıcıları olan midiyalılara deyil, sonrakı dövrdə atəşpərəstliklə səciyyələnən Sasani sülaləsinə aid etmişdir. Sasani hökmdarlarının od tanrısına sitayiş etmək məqsədilə Mədaindən Cənubi Azərbaycana piyada ziyarətə getməsi də mənbələrdə qeyd olunur. Şəmsəddin Sami bu barədə yazır: "Azərbaycanda Marağa ilə Zəncan arasında qədim, əzəmətli və abad bir şəhər var idi. O, atəşpərəstlərin məbədi və ətrafdakı çoxsaylı mədənləri ilə məşhur idi" [11, s. 111].

Sasanilər dövründə zərdüşti məbədlərinin günbəzlərində mövcud olan qədim rəmzlərin bir qismi qorunub saxlanılsa da, həmin məbədlər artıq atəşpərəstlik ibadətgahlarına çevrilmişdi. Bu dövrdə planetlərə aid məbədlərin adları da dəyişdirilmişdir: Saturn "Azərmehr", Yupiter "Azərbəhram", Mars "Azərnuş", Günəş "Azərain", Venera "Azərxəzin", Merkuri "Azərbərzin", Ay isə "Azərzərdüşt" adlandırılmışdır [11, s. 111]. İslam dövründə isə həmin məbədlərin bir çoxu, o cümlədən Şeyx Səfi kompleksi sufilərin ibadət məkanına çevrilmişdir [11, s. 111].



Hind atəşpərəsti. Bombey, atəşpərəst məbədi. M.Boys

Beləliklə, "muğam" termini "muqların" – yəni maqların nəğməsi kimi izah olunur. Onu da qeyd etmək lazımdır ki, fars atəşpərəstləri - zərdüştilər müqəddəs oda natəmizlik gətirməmək məqsədilə ağızlarını örtərək ibadət etdiklərinə görə, ənənəvi anlamda açıq şəkildə mahnı ifa etmirdilər.

Ədəbiyyat:

1. Афанасьева В.К. Искусства Двуречья V-II тысячелетий до н.э. // Искусства Древнего Востока. – Москва: Искусство, 1968.
2. Алиева К. К изучению коврового искусства Южного Азербайджана // Азербайджан и азербайджанцы. – Баку, 2002. – № 7–8. – С. 74–90.
3. Алиева К. Новая интерпретация сюжетов некоторых керамических сосудов эпохи ранней бронзы из Киликдага. – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarix Muzeyi, 2010. – S. 168–171.
4. Авеста. Избранные гимны / пер. и комм. И. М. Стеблин-Каменского. – Душанбе: Адиб, 1990. – 176 с.
5. Бойс М. Зороастрийцы: верования и обычаи. – Москва, 1998.
6. Геродот. История в девяти книгах. – Т. 1. – 2-е изд. – Москва, 1988.
7. Гуммель Я.И. Памятники древности в окрестностях Киликдага // Известия Азербайджанского филиала АН СССР. – 1941. – № 2.
8. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа XIV–IX вв. до н.э.
9. Диоген Лаэртский. О жизни ученых и изречениях знаменитых философов. – Москва: Мысль, 1979.
10. Elməddin Əlibəyzadə. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. – Bakı: Gənclik, 1998.
11. Керимов Л. Азербайджанский ковер. – Т. 2. – Баку: Гянджлик, 1983.
12. Маковельский А.О. Авеста. – Баку: Изд-во АН Азербайджанской ССР, 1960.
13. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. – Bakı, 1994.
14. Руденко С.И. Древнейшие в мире художественные ковры и ткани. – Москва: Искусство, 1968.
15. Фирдоуси. Шахнаме.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300